

XALİQ YUSİFOĞLU

## *BALA*

Bir dəfə qalxan qiymət bir daha enməz, bala!
Millət yaman gündədir öldürsən dinməz, bala!

Qaz baha, işıq baha, ümid qalıb Allaha,
Ümid də gəldi getdi, dayanmadı sabaha.
Bu Tarif Şurası da ağın çıxartdı daha,
Bir dəfə qalxan qiymət bir daha enməz, bala!
Millət ağlar gündədir güldürsən gülməz, bala.

Dərd ucuz, dərman baha, insandan fərman baha,
Hardadır o baş bilən, hardadır böyük düha?
Eyləyə dərdə çarə, ümid arta sabaha -
Tikə ümidlər üstə yüzlərlə gümbəz, bala!
Millət yaman gündədir öldürsən dinməz, bala.

Qiymətlər elə qalxıb raket də çatmaz ona,
Çalma şirin laylanı o uşaq yatmaz, ana.
Zurnaçılar zurnada girirlər min bir dona
Bir dəfə qalxan qiymət bir daha enməz, bala!
Millət ağır gündədir öldürsən dinməz, bala.

Müstəqillik budurmu, bu idimi azadlıq?
Ölkəni bürüyübdür aclıq, lütlük, kasadlıq.
Gör nə günə qalmışıq hər işimiz fəsadlıq
Bir dəfə qalxan qiymət bir daha enməz, bala!
İçin-için yanırıq yanğımız sönməz, bala!

Neftimiz, qazımız var, çalmağa sazımız var,
Kamanımız, tarımız, yağışlı yazımız var.
Dərdlərə çarə olan qıcqırmış nazımız var
Bir dəfə qalxan qiymət bir daha enməz, bala!
Yağlı plov günlərim bir daha dönməz, bala!

Ətdən, yağdan danışma, yumurta vur keşnişə,
Ağlın bala, çaşmasın, boylanma çox keçmişə.
Millət durduğu yerdə əcəbcə düşdü işə:
Dərdlərini kabab çək manqal üstə sən şişə
Bir dəfə qalxan qiymət bir daha enməz, bala!
Adam hər vaxt atlanıb cin ata minməz, bala!

Gördün yükün ağırdır tüstüləmə, qaz elə.
Ürəyində nə varsa ağ vərəqə yaz elə.
Daha can da qalmayıb söyləyəsən naz ilə
Bilirəm ki, dərdlisən, dərdini de saz ilə:
Bir dəfə qalxan qiymət bir daha enməz, bala!
Kasıb olan rahatlıq ömründə bilməz, bala!
Qubar bağlar içində ürəkdən gülməz, bala!

## *DİKDABAN GEYƏN QIZIN AQİBƏTİ*

Geyinib dikdabanı bir gözəl meydana gəlir,
Nazıyla dağ aşırır, fırlanıb cövlanə gəlir.

Əlində telefonu, qulağında qulaqcıqlar,
Kar olub, lap kor olub yolları koranə gəlir.

Sağ gözü öz işində, sol gözü göy üzündədir,
Deyirsən Leyli olub zəng edib Məcnunə gəlir.

Dar balaq, əyri ayaq, sanki qaçır təngənəfəs,
Təngiyib lap nəfəsi gör necə divanə gəlir.

Neçə rəngə boyayıb saçlarını, dırnağını,
Bu sayaq ilə sanır guya ki, peymanə gəlir.

Unudub ətrafını, həm sağını, həm solunu,
Sığınıb xəyallara cilvələnib cana gəlir.

Neçə göz baxdı ona, çaşdı bu qız sındı daban,
Qalıbdı tək bir ayaq, cəzası dabana gəlir.

Sol daban yerindədir, sağ dabansa yerdə qalıb,
Necə də döndü fəraq, çox ağır zamanə gəlir.

## MUSAVARİ

*(M.Yaqubun "Əlini əlimə öyrətmə belə" şeirinə)*

Kreslo, vəzifə rast saldı bizi,
Çox yaxşı iş oldu, dost saldı bizi.
Bu dostluq quruca olacaq isə...
Gözlərin yollarda qalacaq isə...
Sən allah yalandan yanaşma mənə,
Yalançı vədləri danışma mənə.
Mən bir az iştahlı pələng kimiyəm,
Gül-çiçək ətirli çələng kimiyəm.
Deyim bil, şəkərim puldur, paradır.
Pul üçün ürəyim para-paradır.
Əllərim öyrəşib pay-puş almağa
Gözlərim öyrəşib ələ baxmağa.
Əgər get-gəlişin olmayacaqsa,
Pay vermək vərdişin olmayacaqsa...
Ay kişi yeri get, uzaq dur məndən
Görünmə gözümə uzaqdan, gendən
Çətin tanıyarsan məni hələ sən
Mən də bilməyirəm hələ sən nəsən.
Mən bir az məst olan pişik kimiyəm,
Köç dəvə salası köşək kimiyəm.
Yaylaqdan qaymağım, balım olmasa...
Aylıq alacağım, pulum olmasa...
Dağ kəli ətindən payım olmasa...
Sən allah, dost deyib yanıma gəlmə,
Güvənib boş əllə önümə gəlmə.

## LİRİK LÖVHƏ

Fırlana-fırlana düşən yarpağa
Otları saralan bomboz torpağa
Dərədə kimsəsiz qalan bulağa
Bir payız nəğməsi oxuyasıyam.

Göydə işıldayıb çaxan şimşəyə,
Həsrəti qürbəti yaxan ürəyə,
Qoşulub xəlvətcə əsən küləyə
Bir payız nəğməsi oxuyasıyam.

Dağlardan düzlərə enməyim qalıb
Yaman alışmışam, sönməyim qalıb.
Dərdlərə dərd olub dinməyim qalıb
Bir payız nəğməsi oxuyasıyam.

Hələ oxunmamış nəğmələrim var,
Hələ toxunmamış ilmələrim var.
Həsrət təknəsində kəlmələrim var
Bir payız nəğməsi oxuyasıyam.

Zirvədə qartala, düzdə kəkliyə,
Vaxtsız çiçəkləyib solan çiçəyə,
Yurd, Vətən həsrətli qəlbi kövrəyə
Bir payız nəğməsi oxuyasıyam.

## AZƏRBAYCAN

Kül altında közüm qalıb,
Ürəyimdə sözüm qalıb.
Dərbəndində izim qalıb,
Azərbaycan!
Əyilməyən vüqarın var,
Savalanın, Murovun var.
Yad əllərdə girovun var,
Azərbaycan!

Yaradandan gücünü al,
Düşmənindən öcünü al.
Sonra dincəl, dincini al,
Azərbaycan!

Kür, Arazın, Xəzərin var,
Aya, günə bənzərin var.
Üstümüzdə nəzərin var,
Azərbaycan!

Kimliyimdə sənin adın,
Adındadır istin, odun.
Gözlərini oyaq yadın,
Azərbaycan!

Yaylaqların səfalıdır,
Bulaqların şəfalıdır.
Oğlun, qızın vəfalıdır,
Azərbaycan!

Bəsdir daha, olduq fağır,
Başımıza qaxınc yağır.
Qisas üçün hayla, çağır,
Azərbaycan!

İşarə ver, komandanım,
Damarımda qaynar qanım.
Sənə qurban olsun canım,
Azərbaycan!

Düşmənimi əzəmməsəm,
O dağlarda gəzəmməsəm...
Qalib olub bəzənməsəm
Gülməyəcəm Azərbaycan!
Ölməyəcəm Azərbaycan!

## KEÇMİŞİNİ UNUDANA

Uyma bala, zirvələrə,
O zirvədən enməyin var.
Dünya qoca, ömür fani,
Tabut ata minməyin var.

Çox çəpiyə oldun oyun,
Əyrilərə əydin boyun.
Oldun qoyun oğlu qoyun,
Qızışma ha, sönməyin var.

Onu-bunu yola-yola,
Dadanmısan haram pula.
Müftə gələn yağlı yala,
Bic-bic baxıb dinməyin var.

Ovum-ovum oyularsan,
Məsxərəyə qoyularsan.
Soğan kimi soyularsan,
Taleyin sərt dönməyi var.

Sona qədər gülmür bəxt də,
Dostluğun da çürük, saxta.
Oturduğun yumşaq taxt da,
Fırlandısa, çönməyi var.

Unutma kim olduğunu,
Didib tökmə qoltuğunu.
Gözlə ömrün sonluğunu,
Qır qazanda yanmağın var.

Ay görməmiş tüklü gənə,
Qızarırsan gündən günə.
İnanmıram daha sənə -
Olanları danmağın var.

## BİTİR

Kökdən düşmüş saza bənzər
Dolu vurmuş yaza bənzər.
Bir talesiz qıza bənzər
İllər ötür, ömür bitir.

Həm kədərim, həm qəmim var,
Dərdlə dolu bir gəmim var.
Həsrət adlı həmdəmim var
İllər ötür, ömür bitir.

Dərdlər gəlir dərdlər üstə
Vətən darda, Vətən xəstə.
Diqqət yetir, gör ahəstə
İllər ötür, ömür bitir.

Nə tapmışdım, nə itirdim,
Nə apardım, nə gətirdim.
Gülüş əkib qəm bitirdim:
İllər ötür, ömür bitir.

Sərvətim var, mənim deyil,
Bu yem mənim yemim deyil.
Gedən günlər dönən deyil
İllər ötür, ömür bitir.

Tez get, yüyür Arazdan keç,
Gözlə, dayan bir azdan keç
Olmaz belə avazdan heç -
İllər ötür, ömür bitir.

Dünya belə qalan deyil,
Boşaldımı, dolan deyil.
Demə Xalıq yalan deyir:
İllər ötür, ömür bitir.

# ÇAQQAL HİYLƏSİ

Çaqqal da tapandan çıxış yolunu
Başının altına naz balış çəkir.
Aldadıb, məst edib xallı pələngi
Onun ayağına xəz papış tikir.

# AYAQQABI TALEYİ

Yiyəsinin ayağında
Neçə yerə yollanırdı.
Axşamlar da pilləkənə
Kandaraca tullanırdı.

# ƏRİŞDƏNİN QƏZƏBİ

Yaman coşub əriştə
Getməyəcək güzəştə.
-Gələn gündən vermeşil
Elə mənə ilişir.
Bazarı alıb ələ
Qurubdu mənə tələ.
Çörəyim çıxır daşdan
Silinirəm yaddaşdan.

# POZANIN SONU

Fərəhlənib gərdişindən
Əl çəkmədi vərdişindən.
Onu, bunu poza-poza
Pozan özü döndü toza.

# TÜLKÜNÜN MÜKAFATI

Aslanın hüzurunda
Dilini işə saldı.
Tülkü lələ özünü
Əcəbcə işə saldı.
Dinləyib coşdu aslan:
Kəs səsini yaramaz
Səndən mənə kar aşmaz.
Dünən qurdun toyunda
Deyirdin bu tərifi
Əmr etdi: - tez götürün
Rədd edin bu hərifi.

# HİYLƏGƏR SİÇAN

Siçanı tutmaq üçün
Pişik xeyli əlləşdi.
Çox tullandı, çox düşdü
Hiylə qurdu, dilləşdi.
Siçan gələrək dilə
Dedi: Ay pişik lələ,
Bir nəfəs al, dur hələ.
Məni tutmaq istəsən
Gərək bunu biləsən.
Tələdəki çörəkdən
Qopar mənə tulla sən
Pişik cumdu çörəyə
Əli düşdü tələyə.
İndi pişik tələdə
Siçan gəzir hələ də.

# AT MİLÇƏYİ

Məskən bilib qurub yuva,
Yatmır ipə, yatmır sapa.
Quyruq altda, qoltuq altda.
Tük altında neçə qatda.
Burnu iydə, ağzı dadda.
Bəyənməyir hər böcəyi
At milçəyi, at milçəyi.

# ƏSİLZADƏLƏR

Qurbağayla tısbağa
Bir yerdə görüşdülər.
Qol-boyun öpüşdülər.
-Eyni kökdənik, qağa
Bax, qurbağa, tısbağa.
Görürsən, kökümüzə
Necə yaraşır ağa!
Qürrələndi qurbağa
Cumub girdi palçığa.

# TARAKANIN FƏRYADI

On min yumurta qoyur
Tarakan bir gecədə.
Özünü didir, döyür
Yolda, kolda, küçədə.
-Yox kimsədən bir haray,
Sonsuz ölən canım vay.

# QOHUM OLDULAR

Didişib vuruşdular
Sonra da barışdılar.
Bir masa arxasında
Bölüşdülər, böldülər
Siçan, pişik dost olub
Razılığa gəldilər.
Sənədlər hazırlandı
Sazişlər imzalandı.
Siçanın var-dövləti
Xəzinəsi sərvəti,
Olur məstan pişiyin
Özü çəkər keşiyin.
Siçanlarla pişiklər
Bu andan dost oldular.
Lap qol boyun oldular.
Əllər belə dolandı
Demə bunlar yalandı:
Xəbər çıxdı eşiyə
Siçanın kiçik qızı
Nişanlandı pişiyə.

# PAYIZ LÖVHƏSİ

Şütüyür, kükrəyir
payız rüzgarı.
Sürüyüb gətirir
çovğunu, qarı.
Qorxudan yarpaqlar
saralıb, solur.
Xəndəklər, çökəklər
xəzəllə dolur.
Düşürlər torpağa
dirilmək üçün.
Vida nəğməsidir xışıltıları
baharda yenidən
göyərmək üçün.
Biz də saralırıq
ömür bağında
Ömrün də lap cavan,
qoca çağında
Gedirik torpağa
çürümək üçün.
Mən torpaq oğluyam,
torpaq canımdır.
Canıma qovuşmağa,
qanıma qovuşmağa,
Anama qovuşmağa
gedəcəyəm torpağa
bu solub-saralan
yarpaqlar kimi.

# KİŞİ XORUZ

Kürt toyuq çil xoruza:
-Görürsən, göyərçinin,
Xoruzu da kürt yatır.
Elə də banlayırsan
Səsin aləmə çatır.
Gen açıb qanadını
Qondu hinin daşına.
Çəp baxdı arvadına:
Yəni o da kişidir?
Külü töküm başına.